BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2008

# AZƏRBAYCAN RESPUBLİKASINDA ALİ TƏHSİL VƏ AVROPA TƏHSİL MƏKANI

S.R.BAĞIROVA
*Bakı Dövlət Universiteti*

Son illərdə Azərbaycan Respublikasında ali təhsilin inkişafının ən kəskin sosial problemlərindən biri onun vahid Avropa təhsil məkanına qoşulmasıdır. 1999-cu il iyunun 19-da 29 Avropa ölkəsi təhsil nazirlərinin İtaliyanın Bolonya şəhərində keçirilmiş görüşündə qəbul olunduğuna görə bu məkanın yaradılması prosesi həmin şəhərin adını almışdır. Bolonya prosesi hələ xeyli əvvəllər, daha çox YUNESKO (və özəlliklə YUNESKO-nun Avropa regionu) daxilində dinamik şəkildə inkişaf edən inteqrasiya proseslərinin təbii davamı oldu. Vurğulamağı lazım bilirik ki, Avropa İttifaqı və onun genişlənməsi prosesi bu inteqrasiya çalışmalarına yeni motivasiya və impuls verdi. Məhz Avropa İttifaqı ölkələrinin Bolonya prosesinin yaradıcıları olmasının əsas səbəbi də elə bu idi (1).

Bolonya prosesi ilk gündən yeni üzvlər üçün açıq olub. 1999-cu ildə 29 üzvü olan bu quruma getdikcə daha çox «genişlənən Avropa» ölkəsi qoşuldu və ali təhsil nazirlərinin iki ildə bir dəfə keçirilən hər görüşündə qəbul üçün yeni-yeni ərizələrə baxılmağa başlandı. Azərbaycan Respublikası Bolonya prosesinə rəsmi şəkildə 2005-ci ilin mayında (2), Gürcüstan, Moldova və Ukrayna ilə birlikdə qoşulub. Beləliklə, hazırda Bolonya prosesinə qoşulmuş ölkələrin sayı 45-ə çatıb.

Respublikamızın Bolonya prosesinə qoşulması ölkədə ali təhsilin inkişafı qarşısında bir sıra yeni tələblər qoyur. Proses Avropada formalaşmaqda olan və çoxsaylı fundamental fəaliyyət prinsiplərinin ümumiliyini nəzərdə tutan vahid təhsil sisteminin ayrılmaz hissəsi kimi nəzərdən keçirildiyindən, Azərbaycan Respublikası ali təhsilinin inkişafında bu məsələlər Avropada rəsmi tanınmaq imkanı yarada biləcək səviyyədə nəzərə alınmalıdır.

Fikrimizcə, bu bir tərəfdən, bəzi Avropa universitetlərinin ən gözəl nailiyyətlərinin nəzərə alınması, digər tərəfdən milli təhsil ənənələrimizin diqqətlə qorunub saxlanmasıdır. Ən perspektivsiz yol Avropa təhsil sisteminə kor-koranə əməl edib onun ardınca getmək olardı.

Bolonya prosesi ictimai, siyasi və ekoloji strukturlara dərindən nüfuz edir, ayrı-ayrı adamların, onların birlikləri və ölkələrinin maraqlarına toxunur. Azərbaycan Respublikasının daxili maraqları Bolonya prosesi ilə əlaqə baxımından modernləşdirmə sahəsində ölkəmiz qarşısında dayanan vəzifələrin ümumi kompleksi ilə əlaqədardır. Onlar Azərbaycanda ali məktəblərin informasiya əsri və dünya bazarı standartlarına və tələblərinə uyğunlaşdırılmasına istiqamətlənmiş ali təhsil islahatı-

nı, milli-mədəni və təhsil identikliyini, respublikamızda ali məktəb ənənələrini qoruyub saxlamağı nəzərdə tutur. Sözün geniş mənasında, Bolonya prosesində Azərbaycan Respublikasının əsas daxili maraqları prosesin respublikamızda aparılan siyasi, ekoloji sə sosial islahatların ümumi kompleksinə bilavasitə təsiri ilə bağlıdır. Bolonya prosesi ali təhsil, əmək bazarı (bazarın strukturlaşdırılması və diferensasiyası işçi qüvvəsinin diferensasiyasını tələb edir, yəni peşəkarlığın üç səviyyəsi –bakalavr, magistr və doktor (RİD) - təklif olunur) və ictimai sektorun (müstəqil universitet və assosiasiyaların yaradılması) islahatına birbaşa təsir göstərir.

Azərbaycan Respublikasının Bolonya prosesinə münasibətdə xarici maraqları da müxtəlifdir. İlk növbədə bu, elm, təhsil və humanitar sahələrdə Avropa İttifaqı ilə dialoqun genişləndirilməsidir. Bundan əlavə, Azərbaycan Respublikasında ali təhsilin Bolonya prosesinin normalarına, əsas parametrlərinə və tələblərinə adaptəsi, fıkrimizcə, ölkəmizin Avropa İttifaqına daha geniş institusional adaptəsinə hazırlıqda «harmoniya məktəbi» rolunu oynaya, onlar arasında tərəfdaşlığın gələcək inkişafına xidmət edə bilər.

Azərbaycan Respublikasının Bolonya prosesinə 2005-ci ilin mayında qoşulmasına baxmayaraq, onun tələb və əsasnamələrindən bəziləri artıq müstəqilliyimizin ilk illərində həyata keçirilmişdir:

- təhsil müəssisələrinin iki səviyyəli akkreditasiya sistemi həyata keçirilimişdir;
- bütün peşələrə yiyələnən məzunlara milli əmək bazarında tam tələbat təmin olunmuşdur. Azərbaycan Respublikası postsovet məkanında 1993-cü ildən mütəxəssislərin ikipilləli (bakalavr-magistr) hazırlanması sisteminə keçmiş ilk respublika oldu (3). 1996/1997-ci illərdə AR Təhsil Nazirliyi bakalavr mütəxəssislərin hazırlanması üçün proqram və normativ-hüquqi aktların tərtibini başa çatdırdı. 1997-ci ildən magistr pilləsi üçün proqramların hazırlanmasına başlanıldı. Çoxsaylı normativ-hüquqi aktlar, tədris-metodik materialı və proqramlar tərtib olundu. Bunların içərisində «Magistr hazırlığına dair Əsasnamə», «Magistr ixtisaslarının siyahısı», «Magistrlik dissertasiyalarının hazırlanması və müdafiəyə təqdim olunması» və başqa sənədlər var idi.

«Magistr haqqında Əsasnamə», «Magistr ixtisaslarının layihəsi» (magistr planları)», «Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşmış elmi şuralar haqqında» Əsasnamə hazırlandı (4).

Hazırlıq istiqamətli, yəni bakalavr-magistratura modeli üzrə proqramların işlənməsi zamanı müəlliflər belə bir ideyaya əsaslanırdılar: ixtisas üzrə hazırlıqdan fərqli olaraq, istiqamət üzrə hazırlıq elm və təlim üçün kadrların yetişdirilməsidir. Məhz bakalavriat üçün nəzərdə tutulmuş geniş bilik və fundamentallıq, bir tərəfdən, «elitar» orta təhsil müəssisələri (gimnaziyalar, litsey və s.) müəlliminin funksiyalarını böyük müvəffəqiyyətlə yerinə yetirən, digər tərəfdən, müxtəlif elmi-tədqiqat institutlarının elmi işçilər korpusunun özəyini təşkil edən dərin bilikli məzunlar yetişdirilməsinə yardım edir. Bakalavriat, eyni zamanda, magistratura üçün vacib tramplin rolunu oynayır. Magistratura geniş fundamental hazırlığa bəzi dar problemlər sahəsində dərinləşdirilmiş biliklər əlavə edir. Belə birləşmə iddia etməyə əsas verir ki, yüksək dərəcəli dar ixtisaslı mütəxəssis olmaq üçün geniş biliklərə yiyələnmək vacibdir.

Hazırda 49 dövlət və özəl ali məktəbdən 38-də magistratura fəaliyyət göstərir. Azərbaycan Respublikasında magistratura sistemində mütəxəssislərin hazırlanması 80 istiqamətdə həyata keçirilir, magistrantların sayı isə 7702 nəfərə çatıb.

AR Təhsil Nazirliyinin rəhbərliyi təhsil müəssisələrinin attestasiyası və akkreditasiyası üçün normativ-hüquqi bazanın yaradılması istiqamətində böyük iş görmüşdür. «Ali və orta ixtisas təhsili müəssisələrinin akkreditasiyası haqqında Əsasnamə» hazırlanmış və Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli 49 saylı qərarı ilə təsdiq edilmişdir.

1994-cü ildən başlayaraq, respublikanın ali təhsil müəssisələrində mütəxəsisslərin hazırlanmasının ödənişli sistemi tətbiq olunur. Əldə olunan gəlir ali təhsil müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilir, müəllimlər əsas əmək haqqına əlavə ödəmələr alırlar. Respublikanın ali təhsil sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədilə 1998-ci ildən ali təhsil müəssisələrinə lisenziyaların verilməsinə başlanılıb. Bolonya prosesinin tələblərinə uyğun olaraq, nəzəri biliklərin öyrənilməsinə ayrılan həftələrin sayı 133-dən 115-ə endirilib, seçmə fənlərin seçilməsi faizi 5-dən 20 yə qədər artırılıb.

2010-cu ilə qədər respublikanın ali təhsil sistemində Bolonya prosesinin əsasnamələrindən birinin - kredit sisteminin tətbiqi haqqında məsələ gündəlikdədir (2006-cı ildən başlayaraq, eksperiment kimi, Bakı Dövlət Universitetində və İqtisad Universitetində bir sıra ixtisaslar üzrə kredit sistemi tətbiq olunub) (5). Qeyd olunmalıdır ki, Bolonya prosesinin bütün milli təhsil sistemlərində təlimin iş əmsalının kreditlərlə uçotu (ECTC) haqqında Əsasnaməsi tələbələrin mobilliyini dəstəkləmək vasitəsi kimi nəzərdə tutulur. Azərbaycan Respublikası ali təhsilinin bu sistemi qəbul etməyə nə dərəcədə hazır olduğundan danışarkən nəzərə almaq lazımdır ki, respublikanın ali təhsil müəssisələrində tədris yükü saatlarını kredit vahidlərinə çevirmək lazım gələcək, bu isə tədris olunan bütün fənləri statusuna görə eyniləşdirən mexaniki prosedurdur və prinsipcə, bununla razılaşmaq olmaz. Bundan əlavə, unutmaq olmaz ki, kredit sisteminin əsasını təlimin normativ təyin edilmiş müddətinin və öyrənilən kursların dəqiq müəyyənləşdirilmiş siyahısının olmaması təşkil edir. Yalnız (eksperiment keçirilən ali məktəblərdə) təlimin bir ilinin 60 kreditə, bir semestrin isə 30 kreditə müvafiq olduğu qəbul edilib. Lakin bunun arxasında kurs seçmənin həddindən artıq böyük seçimi durur ki, bu da tələbələrin müxtəlif tipli və səviyyəli kreditləri qarışdırması və fənlərin öyrədilməsi məntiqinin pozulması ilə nəticələnə bilər. Yəqin ki, sərhədsiz seçim azadlığına əsaslanan və yalnız bir məqsədə - lazımi kredit miqdarının toplanmasına xidmət edən fərdi təhsil trayektoriyasının yaranmasına yol vermək məqsədəmüvafiq olmaz.

Bolonya sənədlərinə müvafiq kredit sisteminin tətbiqi bir sıra prinsiplərdən qidalanır; onların əsasında isə, bir tərəfdən, ölkələrin və ali məktəblərin təhsil siyasətində muxtariyyəti, digər tərəfdən, müxtəlif təhsil sistemlərinin bir-biri ilə uyarlığı dayanır. Buradan da həmin sistemlərə verilən əsas tələb – onların şəffaflığı yaranır. Təhsilin müxtəlif sahələrdəki forma və səviyyələri Bolonya prosesinin bütün iştirakçılarına aydın olmalıdır. Bu, təhsil planları, tədris prosesi, onun təşkili, verilən səviyyələrin strukturlaşdırılması haqqında bitkin məlumatların və s. olması deməkdir.

Bolonya prosesinin mühüm (amma həm də Azərbaycan şəraitində

mübahisəli) əsasnamələrindən biri də tələbənin bir ildə başqa ali məktəbdə təhsil almasının vacibliyinin qəbul edilməsidir. Təhsil prosesində ali məktəblərin (bəlkə də bir neçəsinin) dəyişdirilməsinin arxasında heç də həmişə gələcək mütəxəssisin peşə statusunun yüksəlməsi dayanmır. Xüsusən, tələbə nüfuzlu ali məktəbdə oxuyursa, vəziyyət başqa, hətta əks xarakter ala bilər. Respublika ali məktəb rəhbərlərinin əksəriyyəti nadir hallarda belə tələbə mobilliyinin əleyhinə çıxır. Göründüyü kimi, Bolonya prosesinə tam qoşulmaq ərəfəsində AR ali təhsili qarşısında kifayət qədər kəskin və mürəkkəb problemlər durur. Nəzərə alınsa ki, Bolonya konvensiyasının fəaliyyətə başlama tarixi 2010-2011-ci illərdə reallaşacaq, onda bu müddətdə nə qədər ciddi qarşıdurma və problemlərin həll olunmasının vacibliyi aydınlaşar. Hələ indiyə kimi ali təhsil sistemində bir çox alim və nəzəriyyəçilər bu prosesdən yan keçməyə ümidlidirlər və problemlərın həlli yollarını axtarmaqdan daha çox, AR ali təhsil sistemi üçün Bolonya sənədləri qəbulunun nəticəsiz olacağını sübut etmək imkanlarını araşdırmaqla məşğuldurlar. Biz fərqli mövqe tuturuq, çünki Bolonya prosesi müasir dünyada baş verən vahid inteqrasiya prosesinin tərkib hissəsidir və qloballaşma konsepsiyası çərçivəsində reallaşdırılır, buna görə ondan yan keçmək, yəqin ki, mümkün deyil. Bununla əlaqədar, təkcə nailiyyətlər deyil, mümkün itkilər də əsaslı şəkildə tədqiq olunmalıdır. AR ali təhsil sistemi bir sıra nailiyyətlərə malikdir; respublika ali məktəb məzunlarının xaricdə uğurlu işi buna sübutdur. Sistem mütəxəssislərin fundamental ümumi elmi və ixtisas hazırlığına görə təqdir olunur və qiymətləndirilir.

Bolonya prosesinin bütün əsasnamələri ilə sözsüz razılaşmaq ali təhsilimizin əksər nailiyyətlərinin qaçılmaz itkisi ilə nəticələnə bilər. Məhz buna görə Bolonya prosesi çərçivəsində Avropa təhsil məkanına qoşulmağımızın bütün mərhələlərində AR ali təhsil sistemindəki bir sıra ənənələrin hifz olunması gündəlikdə duran vacib məsələlərdəndir.

## QEYDLƏR


1. Байденко В.И. Болонский процесс: структурная реформа высшего образования в Европе. М.: 2002, с. 18.
2. Mərdanov M. Azərbaycan təhsili: dünən, bu gün, sabah. Bakı: «Təhsil», 2006, s. 162.
3. Əsgərov Ş. Təhsilimiz dünən, bu gün və sabah. Bakı: «Azərbaycan». 2000, s.187.
4. Təhsil qanunlarının külliyatı. Bakı: 2001.
5. Mərdanov M. Azərbaycan təhsili: dünən, bu gün, sabah. Bakı: «Təhsil», 2006, s.256.


## ВЫСШЕЕ ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ И ЕВРОПЕЙСКОЕ ОБРАЗОВАТЕЛЬНОЕ ПРОСТРАНСТВО


С.Р.БАГИРОВА


### РЕЗЮМЕ


В научной статье предпринимается попытка раскрыть основные вопросы развития высшего образования в республике. Определить направления, по которым осуществляются сегодня реформы в высшей школе. Исследовать суть болонской системы обра-

зования и рассмотреть процесс интеграции высшей школы Азербайджана в Европейское образовательное пространство.

## HIGH EDUCATION İN AZERBAIJAN REPUBLIC AND EUROPEAN EDUCATIONAL VACUUM

**S.R.BAGHIROVA**

**SUMMARY**

The scientific article examine an attempt to disclose major problems of development of high education in the republic: to defme the directions that today are implemented the reforms in high school: to investigate the educational bologna system and examine the process of integration of high schools of Azerbaijan to european educational vacuum.